# “SİMA İmza” gücləndirilmiş elektron imza vasitəsi ilə İnternet Vergi İdarəsinə giriş

“SİMA İmza” gücləndirilmiş elektron imza vasitəsi ilə Dövlət Vergi Xidmətinin informasiya sistemində yaradılan elektron kabinetə daxil olmaq üçün Dövlət Vergi Xidmətinin İnternet Vergi İdarəsinə (https://new.e-taxes.gov.az/etaxes/) giriş edib “SİMA İmza” bölməsi seçilir.







Bunun üçün ilk öncə “SİMA İmza” mobil tətbiqini smartfona yükləyib qeydiyyatdan keçmək lazımdır. Sonra “SİMA İmza” mobil tətbiqini açaraq “QR” düyməsi vasitəsi ilə İnternet Vergi İdarəsinin “SİMA İmza” bölməsində əks olunan QR kod oxudulur (QR kod 5 dəqiqə ərzində aktiv olur).




Növbəti addımda “SİMA İmza” mobil tətbiqdə imzalama prosesinə başlamaq üçün müvafiq imza sertifikatı üzrə seçim edilərək 6 rəqəmli PİN kod daxil edilib (“SİMA İmza”nın qeydiyyatı zamanı öncədən müəyyən olunmuş kod), təmsil ediləcək şəxsdən asılı olaraq müvafiq imza sertifikatı seçilir və avtomatik olaraq elektron kabinetin “əsas səhifə”si açılır.


14:59
44%
İmza seçin
İmzalama prosesini başlatmaq üçün aşağıdakı imzalaradan birini seçin
Vətəndaş
Sahibkar
Digər şəxsin imzalaması üçün imza linkini göndərə bilərsiniz.
Linki göndər
İmtina et
Təsdiq edin


15:00
44%
PİN kod
PİN kodu təsdiqləyin
PİN kodu unutmayın
1
2
3
4
5
6
7
8
9
0


15:00
44%
SIMA
İmza
Dövlət vergi xidməti
Müraciətinizi təsdiq etməyə dəvət edir.
(https://new.e-taxes.gov.az)
İmza sertifikatı
Sahibkar
İmtina edin
Təsdiq edin